Keynes
Finance Group

“AMAL GROUP”

Məhdud Məsuliyyətli Cəmiyyəti

31 dekabr 2024- cü il tarixinə

# MALİYYƏ HESABATLARI VƏ MÜSTƏQİL AUDİTOR RƏYİ


Mob : 055 – 661 – 67 – 68

E – mail : u.abdullayev@atr.az

ADDRESS : Baku City, Ziya Bunyadov avenue 1965,

Chinar Park Business Center, building 1B , 105B

## 31 DEKABR 2024-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT

Rəhbərlik "AMAL GROUP" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN 1305578581) 31 dekabr 2024-cü il tarixlərinə maliyyə vəziyyətini, eləcə də həmin tarixə bitən illər üzrə əməliyyat nəticələri (Mənfəət və Zərər), pul vəsaitlərinin hərəkəti və cəmiyyətin kapitalında dəyişiklikləri düzgün əks etdirən maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsi və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Cəmiyyətin maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MHBS-nın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
- Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- Cəmiyyət daxilində sağlam və effektiv daxili nəzarət sisteminin yaradılması, tətbiqi və saxlanılmasına
- Cəmiyyətin əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə, maliyyə hesabatlarının istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun gəldiyini təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılması;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;
- Cəmiyyətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə və Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə bitən illər üzrə maliyyə hesabatları 19 May 2025-ci il tarixində rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

Direktor — İBRAHİMLİ ORXAN ASİF OĞLU

Baş Mühasib — MAHMUDOV ZAMİR SAYIL OĞLU

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## “AMAL GROUP” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN RƏHBƏRLİYİNƏ

### Rəy

Biz, “**AMAL GROUP**” (VÖEN: 1305578581) Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra Cəmiyyət) 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından, pul vəsaitlərinin hərəkəti haqqında hesabatında, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

**Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Mühasibat Uçotu Standartları Şurasının dərc etdiyi (MHBS) Mühasibat uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdən ədalətli şəkildə əks etdirir.**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti KEYNES FINANCE GROUP Limited Liability Company Republic of Azerbaijan

### Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

### Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternative olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İdarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**" KEYNES FINANCE GROUP" MMC-nin direktoru** **Abdullayev Ülvi Mətləb oğlu**

**" KEYNES FINANCE GROUP" MMC-nin Auditoru** **Hüseynov Sahil Həbib oğlu**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti KEYNES FINANCE GROUP Limited Liability Company Republic of Azerbaijan

Bakı, Azərbaycan Respublikası

03 İyun 2025-ci il

## 1. Əsas fəaliyyət

**"AMAL GROUP "** Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra Cəmiyyət) 09.07.2018-ci il tarixində 1305578581 VÖEN ilə qeydiyyata alınmışdır.

Cəmiyyət əsas fəaliyyət olaraq "SAİR İXTİSASLAŞDIRILMIŞ TİKİNTİ İŞLƏRİ " ilə məşğuldur.

Müəssisənin hüquqi ünvanı: AZ1065, BAKI ŞƏHƏRİ YASAMAL RAYONU, CƏFƏR CABBARLI ev.44, Caspian Plaza 2-ci korpus,15-ci mərtəbə

Müəssisənin qanuni təmsilçisi İBRAHİMLİ ORXAN ASİF OĞLU

## 2. Hesabatların tərtibatının əsası

Təşkilatın maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurasının buraxdığı Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq hazırlanmışdır.

Azərbaycan manatı Təşkilatın funksional və hesabat valyutasıdır çünki, əməliyyatların əksəriyyəti Azərbaycan manatı ("manat") ilə ifadə edilir, ölçülür və ya maliyyələşdirilir.

Aşağıdaki mühasibat uçotu prinsiplərində təsvir olunanlar istisna olmaqla, maliyyə hesabatları ilkin maya dəyəri prinsipi əsasında hazırlanmışdır.

## 3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı

***Fasiləsiz fəaliyyət***

Göstərilən maliyyə hesabatları müəssisənin gələcəkdə də fasiləsiz fəaliyyət göstərəcəyi prinsipində hazırlanıb. Bu prinsipin əsası ondan ibarətdir ki, müəssisənin gələcəkdə əməliyyat fəaliyyətini davam etdirmək üçün heç bir təhlükə yoxdur. Təşkilatın rəhbərliyi hesab edir ki, müəssisə öz öhdəlik və borclarına cavabdehdir.

***Hesablama prinsipi***

Maliyyə hesabatının bütün aspektləri hesablama prinsipinə əsasən hazırlanmışdır.

*Xarici valyutada əməliyyatlar*

Təşkilatın bank hesablarında xarici valyuta ilə əməliyyatlar aparılır.

*Gəlir və xərclərin tanınması*

Gəlirlər müəssisə iqtisadi səmərə gözlədikdə və gəlirin məbləği tam qiymətləndirilə bildikdə tanınır.

Gəlir əldə olunması ilə bağlı xərclər gəlir tanınan dövrdə tanınır. Bununla yanaşı xərclər ödənişin aparıldığı vaxt və ilkin sənədlərin alındığı vaxt yox, çəkildiyi vaxt tanınır.

Xərclər vergitutma bazası hesablaması üçün əsas verməsindən asılı olmayaraq tanınır.

*Vergitutma*

Ödənilməli mənfəət vergisi qüvvədə olan qanunvericiliklə balans tarixinə müvafiq vergi dərəcəsi tətbiq edilməklə vergitutulmalı mənfəətdən hesablanır. Mənfəət vergisi xərci cari vergidən və təxirə salınmış vergidən ibarətdir və, birbaşa kapitalda əks etdirilən əməliyyata aid olduğu üçün həmin və ya digər dövrdə birbaşa kapitalda əks etdirilməsə, maliyyə nəticələri haqqında hesabatda əks etdirilir.

Cari vergi elə bir məbləğdir ki, onun cari və ya əvvəlki dövrlər üçün vergi tutulan mənfəət və ya zərərlərlə bağlı vergi orqanları tərəfindən ödənilməsi və ya qaytarılması gözlənilir. Maliyyə hesabatları müvafiq vergi bəyannamələri təqdim edildikdən əvvəl təsdiq edilmişdirsə, vergi tutulan mənfəət və ya zərərlər qiymətləndirmələrə əsaslanır. Mənfəət vergisindən fərqli olan vergilər inzibati və digər əməliyyat məsrəflərinin tərkibində qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi, öhdəlik metodundan istifadə etməklə, aktivlərin və öhdəliklərin vergi bazası və onların maliyyə hesabatları məqsədləri üçün balans dəyərləri arasında hər müvafiq balans tarixinə mövcud olan bütün müvəqqəti fərqlər üzrə müəyyən edilir.

Təxirə salınmış mənfəət vergisi öhdəlikləri aşağıdakılar istisna olmaqla vergiyə cəlb olunan bütün müvəqqəti fərqlər üçün əks etdirilir:

Təxirə salınmış mənfəət vergisi öhdəliyi təşkilatın birləşməsi olmayan əməliyyat zamanı qudvilin və ya aktiv və ya öhdəliyin ilkin əks etdirilməsindən irəli gəldiyi, eləcə də əməliyyat zamanı uçot mənfəətinə və ya vergiyə cəlb olunan mənfəət və ya zərərə təsir göstərmədiyi hallar; və

- müvəqqəti fərqlərin qaytarılması vaxtının nəzarət altında saxlanıla bildiyi və müvəqqəti fərqin yaxın gələcəkdə qaytarılması ehtimalı olmayan hallar istisna olmaqla, törəmə müəssisələrinə, assosiasiya bağlılığı olan şirkətlərə sərmayələrlə və birgə müəssisələrdə iştirak payları ilə əlaqədar vergiyə cəlb olunan müvəqqəti fərqlər.

Təxirə salınmış mənfəət vergisi aktivləri aşağıdakılar istisna olmaqla bütün çıxılmalı müvəqqəti fərqlər, istifadə edilməmiş vergi aktivləri və istifadə edilməmiş vergi öhdəliklərinin sonrakı dövrə keçirilməsi ilə əlaqədar vergi tutulmalı mənfəətin mövcudluğu mümkünlüyü baxımından, çıxılmalı müvəqqəti fərqlərin, istifadə edilməmiş vergi aktivləri və istifadə edilməmiş vergi öhdəliklərinin sonrakı dövrə keçirilməsi üçün əks etdirilir:

- təşkalatın birləşməsi olmayan əməliyyat zamanı aktiv və ya öhdəliyin ilkin müəyyən edilməsindən irəli gələn və əməliyyat zamanı mühasibat dövründə uçot mənfəətinə və ya vergiyə cəlb olunan mənfəət və ya zərərə təsir göstərmədiyi hallar; və
- törəmə müəssisələrinə, assosiasiya bağlılığı olan şirkətlərə sərmayələrlə və birgə müəssisələrdə iştirak payları ilə bağlı vergiyə cəlb olunan müvəqqəti fərqlərlə əlaqədar, təxirə

salınmış vergi aktivi yaxın gələcəkdə müvəqqəti fərqlərin qaytarılması ehtimalı olan və müvəqqəti fərqin istifadə edilə biləcəyi vergiyə cəlb olunan mənfəətin mövcud olduğu dərəcədə müəyyən edilir.

Təxirə salınmış mənfəət vergisi aktivlərinin balans dəyəri hər bir balans tarixində nəzərdən keçirilir və təxirə salınmış mənfəət vergisi aktivlərinin hamısının və ya bir hissəsinin istifadə edilməsi üçün kifayət qədər vergiyə cəlb olunan mənfəətin mövcudluğu ehtimalı olmadığı halda azaldılır. Tanınmamış təxirə salınmış mənfəət vergisi aktivləri hər balans hesabatı tarixində yenidən qiymətləndirilir və gələcək vergi tutulan mənfəətin təxirə salınmış vergi aktivinin ödənilməsinə imkan verəcəyi dərəcədə tanınır.

Təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri, hər balans tarixinə qüvvədə olan və ya əsas etibarı ilə qüvvədə olan vergi dərəcələri əsasında aktivlərin satıldığı və ya öhdəliklərin yerinə yetirildiyi müddətdə tətbiq edilən vergi dərəcələri ilə ölçülür.

Birbaşa kapitalda əks etdirilən maddələrə aid olan təxirə salınmış mənfəət vergisi mənfəət və zərərdə deyil, kapitalda əks etdirilir.

Təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri cari vergi aktivlərini cari vergi öhdəlikləri ilə əvəzləşdirmək üçün qanuni hüquq mövcud olanda və təxirə salınmış mənfəət vergisi eyni vergi tutulan təşkilata və eyni vergi tutan orqana aid olanda əvəzləşdirilir.

Bundan əlavə Azərbaycan Respublikasının qanunvericiliyində təşkilatın fəaliyyəti ilə əlaqədar bəzi vergilər nəzərdə tutulmuşdur. Bu vergilər mənfəət və zərər haqqında hesabatda digər inzibati xərclərinin tərkibində göstərilir.

***Əmlak və avadanlıqlar***

Əmlak və avadanlıqlar yığılmış köhnəlmə və lazım olduqda, dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla maya dəyəri ilə uçota alınır. Xırda təmir və texniki dəstək xərcləri çəkildikcə xərclərə silinir. Əmlak və avadanlıqların mühüm hissələrinin və ya komponentlərinin əvəz etdirilməsinin dəyəri kapitallaşdırılır, və əvəz etdirilmiş hissə silinir.

Dəyərsizləşəndə, əmlak və avadanlıqlar istifadə dəyərinin və satış xərclərini çıxmaqla ədalətli dəyərin ən böyük məbləğinə silinir. Balans dəyərində azalma əvvəlki yenidən qiymətləndirmə nəticəsində kapitalın əlavə dəyərindən artıq olduğu dərəcədə mənfəət və ya zərərə yazılır. Əvvəlki illərdə aktiv üçün tanınmış dəyərsizləşmə zərəri aktivin istifadə dəyərini və satış xərclərini çıxmaqla ədalətli dəyərini müəyyən etmək üçün istifadə edilmiş qiymətlərdə dəyişiklik baş verdiyi təqdirdə bərpa edilir.

Gəlirləri balans dəyəri ilə müqayisə etməklə müəyyən edilmiş satışdan gəlir və zərərlər mənfəət və ya zərərdə uçota alınır.

Amortizasiya torpaq sahələri çıxılmaqla bütün növ əsas vəsaitlərə qalıq dəyərinin azalması metodu ilə hesablanır. 2024-cü ilin sonuna əsas vəsaitlərə köhnəlmə aşağıdakı normalarla hesablanmışdır

| | Əsas vəsaitlərin qrupları | İllik amortizasiya normaları |
|---|---|---|
| 1 | *Yüksək texnologiya məhsulu* | 25% |
| 2 | *Maşın və avadanlıqlar* | 20% |
| 3 | *Nəqliyyat vasitələri* | 25% |
| 4 | *Qeyri-maddi aktivlər* | 10% |

Tamamlanmamış aktivlərə əmlak və avadanlıqların tikintisi ilə birbaşa bağlı olan xərclər daxildir. Bunlar müvafiq əmlak və avadanlıqlar kateqoriyalarına keçirilir və, eyni qəbildən olan əmlak aktivləri ilə eyni əsasla, tamamlananda və ya istifadəyə veriləndə bunlara köhnəlmə hesablanmağa başlayır.

***Pul vəsaitləri və onların ekvivalentləri***

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə ödəmə müddəti olmayan, ödəmə müddəti bir aydan çox olmayan və müqavilə yüklərindən azad olan pul vəsaitləri daxildir.

***Pensiya təminatı və işçilərə digər ödənişlər üzrə öhdəliklər***

Azərbaycan Respublikasının "Sosial Sığorta Haqqında" Qanununa uyğun olaraq, Təşkilat öz işçiləri adından Dövlət Sosial Müdafiə Fonduna ödənişlər aparmalıdır. Təşkilatın ödənişləri 2023 və 2024-cü ilin sənədlərində əks etdirilmiş işçilərin əmək haqqlarının 200 manatadək olan hissəsindən 3% və 22%, 200 manatdan yuxarı olan hissəsindən isə 10% və 15%-ni təşkil edir. Həmçinin işçilərin hesablanmış əmək haqqından 2% dərəcəsində icbari tibbi sığorta haqqı , 0.5 faiz işsizlikdən siğorta haqqı ödənişləri aparılmışdır.

***Kapital və ehtiyatlar***

Cəmiyyətin nizamnamə kapitalı 100.00 ( Yüz ) manatdır və onun səhmlərinin nominal dəyərindən təşkil olunmuşdur.

## 4. Mühüm mühasibat uçotu mühakimələri, təxminləri və proqnozları

Təşkilat aktivlərin və öhdəliklərin növbəti maliyyə ilində hesabat məbləğlərinə təsir göstərən təxminlər və proqnozlar hazırlayır. Həmin təxminlər və proqnozlar müntəzəm olaraq qiymətləndirilir və rəhbərliyin təcrübəsinə və digər amillərə, o cümlədən rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsaslanır. Həmçinin rəhbərlik, mühasibat uçotu prinsiplərini tətbiq etdiyi zaman, müəyyən mühakimələr irəli sürür. Maliyyə hesabatlarında əks etdirilmiş məbləğlərə daha çox təsir göstərən mühakimələrə və növbəti maliyyə ilində aktivlərin və öhdəliklərin balans dəyərində əhəmiyyətli düzəlişlərin aparılması zərurətini yaradan proqnozlara aşağıdakılar daxildir:

***Vergi qanunvericiliyi***

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyinin şərhi ilə bağlı Təşkilat müəyyən mühakimələr irəli sürür.

***Rəydə dərc olunan hesabatlarınm açıqlaması və qeydlər aşağıdakı kimidir:***

**"AMAL GROUP" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**

**31 dekabr 2024-cü il tarixinə**

***(Başqa cür qeyd edilmədiyi halda məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)***

| | Qeydlər | 2024 | 2023 |
|---|---|---|---|
| **CƏMİ AKTİVLƏR** | | **26 000 150.56** | **4 162 195.37** |
| ***CARİ AKTİVLƏR*** | | **21 384 743.29** | **2 234 495.53** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 2 | 2 645 932.15 | 843 351.00 |
| Debitor borclar | 4 | 1 168 680.81 | 1 085 244.53 |
| Vergi aktivləri | | - | - |
| Mal-material ehtiyatları | 3 | 5 381 529.90 | 253 058.00 |
| Gələcək dövrün xərcləri | | - | 38 635.00 |
| Digər cari aktivlər | 7 | 12 188 600.43 | 14 207.00 |
| ***UZUNMÜDDƏTLİ AKTİVLƏR*** | | **4 615 407.27** | **1 927 699.84** |
| Kapitallaşdırılmış aktivlər | | - | - |
| Təxirə Salınmış Vergi Aktivlər | | - | 37 580.00 |
| Torpaq, tikili və avadanlıqlar (Əsas vəsaitlər və QMA) | 1 | 4 615 407.27 | 1 890 119.84 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **26 000 150.56** | **4 162 195.37** |
| ***CARİ ÖHDƏLİKLƏR*** | | **1 268 676.26** | **1 091 287.76** |
| Malsatan və podratçılara kreditor borcları | 9 | 486 958.11 | 744 306.76 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 10 | 302 056.04 | 5 841.00 |
| İşçi heyəti ilə hesablaşmalar | | 38 852.00 | 30 635.00 |
| Bank krediti | | - | - |
| Digər cari öhdəliklər | 9 | 440 810.11 | 310 505.00 |
| ***UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR*** | | **22 701 056.40** | **1 404 421.00** |
| Digər uzunmüddətli öhdəliklər | 11 | **22 598 783.36** | **1 404 421.00** |
| Alınmış Avanslar | 9 | 102 273.04 | - |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **23 969 732.66** | **2 495 708.76** |
| Ödənilmiş (nizamnamə) kapitalı | | 100.00 | 100.00 |
| Keçmiş İllərin Mənfəət və Zərəri | | 444 262.44 | 444 262.44 |
| Bölüşdürülməmiş mənfəət (zərər) | | 1 586 055.46 | 1 222 124.17 |
| **CƏMİ KAPİTAL** | | **2 030 417.90** | **1 666 486.61** |

**Maliyyə hesabatlarını Təşkilatın rəhbərliyi adından imzalayan və buraxılmasına icazə verənlər:**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyət AMAL GROUP Limited Liability Company Azerbaijan Republic

_______________________ **Direktor**

_______________________ **Baş mühasib**

***31 dekabr 2024-cü il tarixinə***

**"AMAL GROUP" Məhdud Məsuliyyətli Cəmiyyəti**

## MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT

**31 dekabr 2024-cü il tarixinə**
***(Başqa cür qeyd edilmədiyi halda məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)***

| | *Qeydlər* | *2024* | *2023* |
|---|---|---|---|
| Əsas fəaliyyətindən gəlir | *12* | 47 824 590.30 | 14 747 506.00 |
| Digər gəlir | *12* | 1 183 750.59 | 387 292.00 |
| Satışın maya dəyəri | *13* | (36 754 857.11) | (11 868 645.35) |
| **Satış gəliri** | | **12 253 483.78** | **3 266 152.65** |
| Kommersiya xərcləri | *14* | (17 560.26) | (70 752.00) |
| **Cəmi gəlir** | | **12 235 923.52** | **3 195 400.65** |
| İnzibati xərclər | *15* | (6 936 149.77) | (1 389 658.44) |
| Maliyyə xərcləri | *17* | (413 746.03) | |
| Əməliyyat xərcləri | | - | (278 087.00) |
| Mənfəət vergisindən əvvəl mənfəət/zərər | | 4 886 027.72 | 1 527 655.21 |
| Mənfəət vergisi xərcləri | | 977 205.54 | 305 531.04 |
| **İl üzrə xalis mənfəət/zərər** | | **3 908 822.18** | **1 222 124.17** |

**Maliyyə hesabatlarını Təşkilatın rəhbərliyi adından imzalayan və buraxılmasına icazə verənlər:**

**Direktor**

**Baş mühasib**

***31 dekabr 2024-cü il tarixinə***

"AMAL GROUP" Məhdud Məsuliyyətli Cəmiyyəti

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

31 dekabr 2024-cü il tarixinə

*(Başqa cür qeyd edilmədiyi halda məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeydlər № | Nizamnamə kapitalı | Bolüşdürülməmiş Mənfəət (ödənilməmiş zərər) | Xalis mənfəət | Yenidən qiymətlədir ilmə | Cəmi |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| **1 yanvar 2023-ci il tarixinə olan qalıq** | | **100.00** | **444 262.44** | - | - | **444 362.44** |
| **2022-ci il üçün kapitaldakı dəyişikliklər** | | | | | | |
| Dövr ərzində xalis mənfəət | | | - | **1 222 124.17** | - | **1 222 124.17** |
| Ödənilmiş dividend | | | - | - | - | **0.00** |
| Yenidən qiymətləndirilmədən əldə olunan gəlir | | | - | - | - | **0.00** |
| Gəlirdən çıxılmayan xərclər | | | - | - | - | **0.00** |
| **31 dekabr 2023-ci il tarixinə olan qalıq** | | **100.00** | **444 262.44** | **1 222 124.17** | - | **1 666 486.61** |
| **1 yanvar 2024-cü il tarixinə olan qalıq** | | **100.00** | **444 262.44** | **1 222 124.17** | - | **1 666 486.61** |
| **2023-cü il üçün kapitaldakı dəyişikliklər** | | | | | | |
| Dövr ərzində xalis mənfəət | | | - | **3 908 822.18** | - | **3 908 822.18** |
| Ödənilmiş dividend | | | - | **- 3 544 890.88** | - | **- 3 544 890.88** |
| Yenidən qiymətləndirilmədən əldə olunan gəlir | | | - | - | - | - |
| Gəlirdən çıxılmayan xərclər | | | - | - | - | - |
| **31 dekabr 2024-cü il tarixinə olan qalıq** | | **100.00** | **444 262.44** | **1 586 055.46** | - | **2 030 417.90** |

**Maliyyə hesabatlarını Təşkilatın rəhbərliyi adından imzalayan və buraxılmasına icazə verənlər:**

**Direktor**

**Baş mühasib**

**31 dekabr 2024-cü il tarixinə**

"AMAL GROUP" Məhdud Məsuliyyətli Cəmiyyəti

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

31 dekabr 2024-cü il tarixinə

*(Başqa cür qeyd edilmədiyi halda məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeydlər № | 2024 | 2023 |
|---|---|---|---|
| *Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti* | | | |
| Hesabat dövrü üzrə xalis mənfəət | | 3 908 822.18 | 1 222 124.17 |
| ***Düzəlişlər:*** | | | |
| - Aktivlər üzrə hesablanmış amortizasiya | | 476 611.25 | 398 753.44 |
| **Dövriyyə kapitalında dəyişiklik** | | **4 385 433.43** | **1 620 877.61** |
| - Debitor borcların (artması) azalması | | (83 436.28) | (1 014 279.52) |
| - Vergi aktivlərin (artması) azalması | | - | - |
| - Material ehtiyatlarının (artması) azalması | | (5 128 471.90) | 1 765 794.72 |
| - Digər cari aktivlərin (artması) azalması | | (12 135 758.43) | 712 958.91 |
| - Malsatan və podratçılara kreditor borcların artması (azalması) | | (257 348.65) | (1 095 506.07) |
| - Vergi öhdəliklərin artması (azalması) | | 296 215.03 | - |
| - Alınmış Avansların artması (azalması) | | 102 273.04 | (506 545.12) |
| - Digər cari öhdəliklərin (artması) azalması | | 21 473 728.80 | 18 948.95 |
| **Gəlirdən çıxılmayan xərclər** | | **0.00** | **0.00** |
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitinin xalis hərəkəti** | | **8 652 635.04** | **1 502 249.48** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsatinin hərəkəti** | | | |
| - Torpaq, tikili və avandanlıqlar əldə edilməsi | | (3 305 163.01) | (1 634 571.00) |
| - Kapitallaşdırma üçün aktivlər üzrə xaricolmalar | | 0.00 | - |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsatinin xalis hərəkəti** | | **(3 305 163.01)** | **(1 634 571.00)** |
| **Maliyyələşmə fəaliyyəti üzrə pul vəsatinin hərəkəti** | | | |
| - Kredit vəsaitlərin cəlb edilməsi (qaytarılması) | | - | 816 336.52 |
| - Təsisçi Borcları üzrə alınma (qaytarılması) | | - | - |
| - Ödənilmiş Dividendlər | | (3 544 890.88) | - |
| **Maliyyələşmə fəaliyyəti üzrə pul vəsatinin xalis hərəkəti** | | **(3 544 890.88)** | **816 336.52** |
| **İl ərzində pul vəsaitlərinin artması ( azalması )** | | **1 802 581.15** | **684 015.00** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə qalığı** | | **843 351.00** | **159 336.00** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna qalığı** | | **2 645 932.15** | **843 351.00** |

**Maliyyə hesabatlarını Təşkilatın rəhbərliyi adından imzalayan və buraxılmasına icazə verənlər:**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyət AMAL GROUP Limited Liability Company Azerbaijan Republic

**Direktor**

**Baş mühasib**

**31 dekabr 2024-cü il tarixinə**

## 1. Əmlak və avadanlıqlar

Əmlak və avadanlıqlarda hərəkət:

| | *Binalar, Tikililər və qurğular* | *Maşın və avadanlıqlar* | *Nəqliyyat vasitələri* | *Yüksək Texnologiya Məhsulu* | *Qeyri Maddi Aktivlər* | *Cəmi* |
|---|---|---|---|---|---|---|
| **01.01.2023-cü il tarixinə balans dəyəri** | **37 973.44** | **161 774.27** | **337 492.03** | **11 236.77** | **42 162.77** | **590 639.28** |
| Alış | **443 965.00** | **1 012 547.00** | **105 509.00** | **58 896.00** | **13 654.00** | **1 634 571.00** |
| Təmir Hesabına Artım | **28 543.00** | **52 247.00** | - | - | - | **80 790.00** |
| Silinmiş Amortizasiya | **35 733.70** | **245 313.65** | **110 750.26** | **1 374.15** | **5 581.68** | **398 753.44** |
| Təqdim edilmə | - | - | - | **17 127.00** | - | **17 127.00** |
| **31.12.2023-cü il tarixinə balans dəyəri** | **474 747.74** | **981 254.62** | **332 250.77** | **51 631.62** | **50 235.09** | **1 890 119.84** |

| | *Binalar, Tikililər və qurğular* | *Maşın və avadanlıqlar* | *Nəqliyyat vasitələri* | *Sair əsas vəsaitlər* | *Qeyri Maddi Aktivlər* | *Cəmi* |
|---|---|---|---|---|---|---|
| **01.01.2024-ci il tarixinə balans dəyəri** | **474 747.74** | **981 254.62** | **332 250.77** | **51 631.62** | **50 235.09** | **1 890 119.84** |
| Alış | **474 429.30** | **592 928.39** | **2 234 035.97** | - | **3 769.35** | **3 305 163.01** |
| Təmir Hesabına Artım | - | - | **381 034.28** | - | - | **381 034.28** |
| Silinmiş Amortizasiya | - | **95 576.97** | - | - | - | **95 576.97** |
| Təqdim edilmə | - | **779 569.07** | **45 368.97** | **40 394.85** | - | **865 332.89** |
| **31.12.2024-ci il tarixinə balans dəyəri** | **949 177.04** | **699 036.97** | **2 901 952.05** | **11 236.77** | **54 004.44** | **4 615 407.27** |

## 2. Pul vəsaitləri

| | *2024* | *2023* |
|---|---|---|
| Bank | 219 406.99 | 321 994.00 |
| ƏDV depozit hesabı | 59 231.29 | 86 926.00 |
| Kassa | 2 367 293.87 | 434 431.00 |
| **Cəmi** | **2 645 932.15** | **843 351.00** |

## 3. Mal-material ehtiyatları

| | *2024* | *2023* |
|---|---|---|
| **Dövrün əvvəlinə qalıq** | **253 058.00** | **1 794 861.85** |
| Material ehtiyatları | 25 817 964.16 | 5 311 000.00 |
| Bitməmiş istehsal | 3 467 500.50 | 4 244 002.00 |
| Hazır Mallar | - | - |
| Malların Silinməsi | 24 156 992.76 | 11 096 805.85 |
| **Cəmi** | **5 381 529.90** | **253 058.00** |

| | 2024 | 2023 |
|---|---|---|
| **4. Debitor borclar və Vergi aktivləri** | | |
| **Dövrün əvvəlinə qalıq** | 1 085 244.53 | 70 965.00 |
| Hesablanıb (Alıcılar üzrə) | 57 839 315.93 | 15 134 798.51 |
| Ödənilib (Alıcılar üzrə) | 57 755 879.65 | 14 120 518.98 |
| **Dövrün sonuna qalıq** | **1 168 680.81** | **1 085 244.53** |
| | | |
| **Dövrün əvvəlinə qalıq** | - | - |
| Hesablanıb (Dövlət Büdcəsi üzrə) | - | - |
| Ödənilib (Dövlət Büdcəsi üzrə) | | |
| **Dövrün sonuna qalıq** | | |

| | 2024 | 2023 |
|---|---|---|
| **5. Gələcək dövrün xərcləri** | | |
| **Dövrün əvvəlinə qalıq** | 38 635.00 | 38 635.00 |
| Sığorta xərcləri üzrə | - | - |
| Digər xərclər üzrə | | |
| Gələcək Dövrün Xərclərinin silinməsi | 38 635.00 | |
| **Cəmi** | | **38 635.00** |

| | 2024 | 2023 |
|---|---|---|
| **6. Kapitallaşdırma üçün aktivlər** | | |
| **Dövrün əvvəlinə qalıq** | - | - |
| Kapitallaşdırılmış aktivlər dövr ərzində daxil olma | | |
| Kapitallaşdırılmış aktivlər dövr ərzində silinmə | | |
| **Cəmi** | - | - |

| | 2024 | 2023 |
|---|---|---|
| **7. Digər qısamüddətli aktivlər** | | |
| **Dövrün əvvəlinə qalıq** | 14 207.00 | 3 594 147.17 |
| Digər aktivlər üzrə daxil olma | 12 174 393.43 | |
| Digər aktivlər üzrə silinmə | | 3 579 940.17 |
| **Cəmi** | **12 188 600.43** | **14 207.00** |

| | 2024 | 2023 |
|---|---|---|
| **8. Bölüşdürülməmiş mənfəət** | | |
| İlin əvvəlinə bölüşdürülməmiş mənfəət (zərər) | 1 222 124.17 | - |
| Dövr ərzində xalis mənfəət (zərər) | 3 908 822.18 | 1 222 124.17 |
| Dividendlər | | |
| Yenidən qiymətləndirilmədən əldə olunan gəlir | | |
| Mənfəətdən istifadə (gəlirdən çıxılmayan xərclər) | | |
| **Cəmi** | **5 130 946.34** | **1 222 124.17** |

| 9. Qısamüddətli kreditor borcları | 2024 | 2023 |
|---|---|---|
| **İlin əvvəlinə kreditor borclar üzrə qalıq** | **1 054 811.76** | **1 650 185.34** |
| Alınmış Avanslar dövr ərzində | 102 273.04 | |
| Alınmış Avanslar ödənilmiş hissəsi (dövr ərzində) | | |
| Bank krediti dövr ərzində | | |
| Bank kreditin ödənilmiş hissəsi (dövr ərzində) | | |
| Malsatanlara qısamüddətli kreditor borcları dövr ərzində | 58 905 894.63 | 14 391 433.13 |
| Malsatanlara qısamüddətli kreditor borcların ödənilmiş hissəsi (dövr ərzində) | 59 163 243.28 | 15 297 311.71 |
| Digər kreditorlara borc dövr ərzində | 440 810.11 | 2 261 156.00 |
| Digər kreditorlara borcun ödənilmiş hissəsi (dövr ərzində) | | 1 950 651.00 |
| **Cəmi** | **1 340 546.26** | **1 054 811.76** |

| 10. Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 2024 | 2023 |
|---|---|---|
| **Dövrün əvvəlinə qalıq** | **5 841.00** | **17 527.55** |
| Mənfəət vergisi | 977 205.54 | 305 531.04 |
| Torpaq vergisi | | |
| Əmlak vergisi | 28 083.04 | 3 880.00 |
| ƏDV | 608 579.00 | 604 251.57 |
| Gəlir vergisi | | |
| Yol vergisi | | |
| ÖMV | | |
| Dividend vergisi | | |
| DSMF | | |
| Silinmiş vergilər (dövr ərzində) | 1 317 652.55 | 925 349.16 |
| **Cəmi** | **302 056.04** | **5 841.00** |

| 11. Digər uzunüddətli öhdəliklər | 2024 | 2023 |
|---|---|---|
| **Dövrün əvvəlinə qalıq** | **1 404 421.00** | **2 653 027.00** |
| Digər öhdəliklər üzrə daxil olma | 98 310 508.00 | 1 256 897.00 |
| Digər öhdəliklər üzrə silinmə | 77 116 145.64 | 2 505 503.00 |
| **Cəmi** | **22 598 783.36** | **1 404 421.00** |

| 12. Gəlir | 2024 | 2023 |
|---|---|---|
| İşlərin Görülməsi və Xidmətlərin göstərilməsindən gəlir | 47 824 590.30 | 14 747 506.00 |
| Malların təqdim edilməsindən gəlir | - | - |
| Digər gəlir | 1 183 750.59 | 387 292.00 |
| **Cəmi** | **49 008 340.89** | **15 134 798.00** |

| 13. Satışın maya dəyəri | 2024 | 2023 |
|---|---|---|
| Xammal və materiallar | 27 495 850.38 | 11 868 645.35 |
| İşçilik xərcləri | | - |
| Malın dəyəri | 676 782.87 | - |
| Satılmış Torpaq ,Tikili və Avadanlıqların dəyəri | 45 368.97 | - |
| Nəqliyyat xərcləri | | - |
| Gömrük xərcləri | | - |
| Bilavasitə malların təqdim edilməsi, işlərin görülməsi ilə bağlı sair xərclər | 8 536 854.89 | - |
| **Cəmi** | **36 754 857.11** | **11 868 645.35** |

| 14. Kommersiya xərcləri | 2024 | 2023 |
|---|---|---|
| Reklam xərci | 17 560.26 | 20 369.00 |
| Marketing xərcləri | - | 2 847.00 |
| Trening xərcləri | | 14 230.00 |
| Digər Kommersiya xərcləri | - | 33 306.00 |
| **Cəmi** | **17 560.26** | **70 752.00** |

| 15. İnzibati xərclər | | 2024 | 2023 |
|---|---|---|---|
| İnzibati işçi heyəti üzrə xərclər | o cümlədən: | **4 927 277.36** | **493 350.02** |
| | *Əmək haqqı* | *4 139 951.11* | *370 586.00* |
| | *Sosial sığorta ayrılmaları* | *787 326.25* | *122 764.02* |
| İcarə xərcləri | | 314 656.40 | 106 603.00 |
| Ezamiyyə Xərcləri | | 9 738.00 | 31 240.00 |
| Nəqliyyat xərcləri | | 192 681.22 | 128 635.00 |
| Sığorta xərcləri | | 139 210.71 | 6 350.00 |
| Təmir və texniki qulluq xərcləri | | 15 869.35 | 12 249.00 |
| Bank komissiyaları və Bank Xidməti Xərcləri | | 174 095.13 | 52 213.00 |
| Yanacaq Xərcləri | | 277 711.36 | 98 852.00 |
| Tender Xərcləri | | | 15 528.00 |
| Audit Xərcləri | | | 9 000.00 |
| Kommunal xərclər | | 101 402.16 | 18 907.98 |
| Rabitə xərclər | | 19 427.50 | - |
| Mühafizə xərclər | | 51 525.52 | |
| Vergilər və cərimələr | | 28 083.04 | 3 880.00 |
| Amortizasiya xərcləri | | | 398 753.44 |
| Elmi Tədqiqat,Layihə Axtarış və Təcrübə Konstruktor işlərinə Çəkilən Xərclər | | 87 013.59 | |
| Sair İnzibati xərcləri | | 597 458.43 | 14 097.00 |
| **Cəmi** | | **6 936 149.77** | **1 389 658.44** |

| 16. Əməliyyat xərcləri | 2024 | 2023 |
|---|---|---|
| Məzənnə fərqi | | 31 524.00 |
| Gömrük Xərcləri | | 42 263.00 |
| Sair Əməliyyat Xərcləri | | 204 300.00 |
| **Cəmi** | | **278 087.00** |

| 17. Maliyyə xərcləri | 2024 | 2023 |
|---|---|---|
| Faiz Xərcləri | 413 746.03 | - |
| | | - |
| Sair Maliyyə Xərcləri | | - |
| **Cəmi** | **413 746.03** | |